Elm və Təhsil Nazirliyinin təşəbbüsü, Təhsilin İnkişafı Fondunun dəstəyi ilə həyata keçirilən IV "Maarifçi" tələbə-məzun proqramı çərçivəsində Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Nicat Məmmədli proqram iştirakçıları ilə görüş keçirib.

Görüşdə çıxış edən Nicat Məmmədli Fondun fəaliyyət istiqamətləri, həyata keçirilən layihələr və təhsil ekosisteminin inkişafına xidmət edən strateji təşəbbüslər barədə ətraflı məlumat verib. O, təhsil sahəsində innovativ yanaşmaların təşviqi, insan kapitalının inkişafı və tərəfdaşlıqların genişləndirilməsi istiqamətində görülən işlərdən bəhs edib.

Görüş zamanı təhsildə rəqəmsal transformasiya və süni intellekt texnologiyalarının tətbiqi mövzusunda fikir mübadiləsi aparılıb. Nicat Məmmədli süni intellektin tədris prosesinə inteqrasiyası, fərdiləşdirilmiş öyrənmə imkanlarının genişləndirilməsi, eləcə də gələcəyin əmək bazarında tələb olunan bacarıqların formalaşdırılmasında bu texnologiyaların rolu barədə fikirlərini iştirakçılarla bölüşüb.

Görüş iştirakçıların suallarının cavablandırılması və qarşılıqlı müzakirələrlə davam edib.

Qeyd edək ki, "Maarifçi" tələbə-məzun proqramının əsas məqsədi gənclərin dövlət idarəçiliyi sahəsində praktiki bilik və bacarıqlarının artırılması, onların peşəkar inkişafının dəstəklənməsi və gələcək karyera imkanlarının genişləndirilməsidir. Proqram çərçivəsində seçilmiş 53 iştirakçı Elm və Təhsil Nazirliyinin struktur bölmələri və tabeli qurumlarında, regional təhsil idarələrində, həmçinin Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyində təcrübə keçəcəklər.